


“Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

Esmira Fuad

## ƏLİ RƏŞTBƏR (QAYIB)



1980-ci ildə Qaradağın Gal kəndində anadan olub. İbtidai təhsilini doğma kəndində, orta təhsilini isə 1990-cı ildə Urmuda alıb. Şeirə-sənətə marağı ata ocağında eşitdiyi saz musiqisi və ana dilində oxuduğu nəşrlərdən başlayıb. "Yol ağlasın" adlı ilk şeir kitabı işıq üzü görüb. Nəsr sahəsində də fəaliyyət göstərir. "Sarayın kəbini" adlı hekayəsi birinci mükafata layiq görülüb.

### Araz

*Məzarımı qazın Araz yanında,*
*Məhşər günü şahid olsun sözümə.*
*Mənim dərdim vətən dərdi, yurd dərdi,*
*Toxunmayın alovuma, közümə.*

*Məzarımı Araz üstə qazarsız,*
*Baş daşıma Araz şeirin yazarsız,*
*Hərdən məni axtararsız gəzərsiz,*
*Üz qoyarsız qəbrim üstə üzümə.*

*Məzarımı unutmayın axşamı,*
*Başım üstə alışdırın bir şamı,*
*Sizdən alıb şair Qayıb ilhamı,*
*Ünvanızı yazıb ağlar gözümə.*

## MİHƏN KƏRİMİ

1980-ci ildə Ərdəbil şəhərinin 10 kilometrliyində yerləşən Səmian kəndində anadan olub. Elə həmin kənddə də ibtidai təhsil alıb. Sonra isə Ərdəbildə orta məktəbi bitirib. Hüquq üzrə ali təhsil alıb. Ərdəbil radiosunda aparıcı və tərcüməçi kimi də işləyir. 2016-cı ildə Bakıda "Ekoprint" nəşriyyatında "Misilsiz sevgi" adlı şeirlər kitabı çap olunub.



### Dözüm

*Deyirlər dözümdür dərd-qəmə dərman,*
*Dözümlə çəkilir dağlardan duman.*
*Canlanır insanda dözümlə iman,*
*Bəs demək ömürlük dözsün bu üzüm,*
*Ümidsiz dözümə nə qədər dözüm?*

* * *

*Yaşım başlanandan, ağlım kəsəndən,*
*Üstümə qəm-kədər yeli əsəndən,*
*Taleyim yad olub bəxtim küsəndən,*
*Zaman sınağına döz olub sözüm,*
*Ümidsiz dözümə nə qədər dözüm?*

* * *

*Dözdük ayrılığa ölüm haxladı,*
*Ölmədik ölənlə dözüm saxladı,*
*Dözümü ayrılıq, həsrət yoxladı,*
*Dözdükcə həsrətə, saraldı üzüm,*
*Ümidsiz dözümə nə qədər dözüm?*

* * *

*O qədər dözdüm ki, dözdən utandım,*
*Dözə korladığım gözdən utandım,*
*Altmış il ayrılıq odunda yandım,*
*Sonda da vətənim yazıldı mərzim*
*Ümidsiz dözümə nə qədər dözüm?*